# "ÖMRÜ SÖZƏ VERDİM"

## *İlham Məmmədlinin şeirlər kitabı üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Tarixən ədəbi görüşləri yaxın olan, həyatı münasibətlərində anlaşıqlı olan söz adamlarının sıx yaradıcılıq əlaqələri onların müəyyən ədəbi orqanlar və yaxud ədəbi kultlar ətrafında birləşmələrinə əsas olur. Bu gün müasir ədəbi prosesi əsasən AMEA-nın Ədəbiyyat İnstitutu izləyir, tədqiqatlar aparır, müəyyən antologiyalar məhz bu institutun xətti ilə çap olunur. Doğrudur, ayrı-ayrı ədəbi orqanların ətrafında birləşməklə yaradıcı adamların sıx mənəvi əlaqələri var. Bu barədə Azərbaycan Yazıçılar Birliyi də istisna deyil. Yazıçılar Birliyinin ədəbi orqanları yazarların əsas istinad mənbəyidir. Amma elə özəl qəzet və jurnallar da var ki, illərin təcrübəsinə arxalanaraq ətrafına çox nüfuzlu ədəbi qüvvələri cəlb edə biliblər. Belə ədəbi orqanlardan biri də «Kredo» qəzetidir. Mənim də redaksiya heyətində təmsil olunduğum «Kredo» qəzeti əsrin dörddə birini yola salıb, növbəti mərhələyə uğurla irəliləməkdədir. Bu qəzetdə dərc olunan imzaların bir çoxunu ilk addımlarından müşahidə etmək imkanım olub. İndi həmin gənclərin demək olar ki, əksəriyyəti Azərbaycanın tanınmış söz-sənət adamıdır. Bəziləri bədii yaradıcılıqdan daha çox elmi tədqiqatlara meyl edib və özlərinin mənəvi aləmlərini ədəbi tədqiqat sahəsində tapıblar.

Belə müəlliflərdən biri də İlham Məmmədlidir. Bizim ədəbi müzakirələrimizdə «Kredo» qəzeti ətrafında cəmləşən müəlliflər haqqında təkrar-təkrar söhbətlərimiz olur. Hətta bir çox müəlliflərin indi daha geniş arenada təmsil olunmaqları insanların sözə inamını, sözlə mənəvi tufanlardan keçməyin mümkün olduğuna inamlarını təmin edə bilir.

Tamxil Ziyəddinoğlu, Hüseyn Məmmədov, İlham Məmmədli, Adil Abdullayev və bir çox başqaları Ə.R.Xələfli ilə daim yaradıcılıq əlaqələrində olan müəlliflər sırasındadır. İndi onlar «Bütöv Azərbaycan» qəzetinin təmsilçiləri kimi daha çox tanınırlar. A.Abdullayev ara-sıra «Kredo» qəzetində yazılarını dərc etdirməkdədir.

Dostum Ə.Xələflinin sosial şəbəkədəki təqdimatından İ.Məmmədlinidaha yaxından müşahidə etmək imkanım oldu. Hələ neçə vaxt əvvəl Xələfli onun «Ömrü sözə verdim» adlı kitabını mənə təqdim etmişdi. Bəlkə də bu kitabla bağlı nəsə yazmaq fikrinə düşməzdim. Amma onun Kəlbəcərdən olduğunu, Kəlbəcər ədəbi mühitini tədqiq etdiyini biləndə bir qədər müəllifin ünvanına həssas yanaşmaq istəyim yarandı. Kitabın redaktoru Əlövsət Ağalarovdur. Mən naşir və publisist kimi onu yaxından tanıyıram. Amma Ön sözün müəllifi professor Vaqif Sultanlının «Sözün və sükutun harmoniyası» adlı qeydlərini oxuduqda İlhamın şair kimi artıq kifayət qədər özünüifadə imkanlarına sahib olduğuna inandım. V.Sultanlı yazır: *«Bütövlükdə müəllifin yazılarında poetik mətnin daxili strukturunu oluşduran cizgilər forma-nı şəkillәndirən elementlərlə qovuşduğundan tamlıq yaradır. Həyatın itmiş mənalarını axtarmaq, adi görünən həqiqətləri mənalandırmaq, misraların yükünü müəyyənləşdirmək yazılara özünəməxsusluq, bənzərsizlik aşılayır. Şeirlərdə bəndlərin düzülüş ardıcıllığı, misraların sıralanışı, informasiya və ritm təkrarsızlığı, bu təkrarsızlığın mayalandığı klassik poetik ənənə yeni, bənzərsiz çalarlar qazanaraq mətnin fərqliliyini təmin edir».* Bu qeydlərdən hiss olunur ki, V.Sultanlı İ.Məmmədlinin şeirlərini diqqətlə oxuyub, onun düşüncə istiqamətini izləyib, bir sözlə İ.Məmmədlinin ənənələr üstə köklənmiş poeziyasının ədəbi dəyərə malik olduğunu dəqiqliklə təsdiq edir. Onu da qeyd edim ki, V.Sultanlı məşhur bir deyimə söykənərək şeiri təhlil etməyin çətinliyini göstərir və bununla da şairin mənəvi mühitinə daxil olmağın nəticəsində oxucunun hansı hisslərə, duyğulara sahibləndiyini göstərə bilir. Onu da deyim ki, elə mən də müşahidə etdim. Ön söz müəllifi də göstərir ki, İ.Məmmədlinin şeirlərində bir kədər motivi var və bu kədər onun həyatının mahiyyətinə bədii fon verib. Əlbəttə, söhbət təkcə maddi məhrumiyyətlərdən, sosial çıxılmazlıqdandan getmir. Qeyd etdiyim kimi, İ.Məmmədli kəlbəcərlidir. Kəlbəcər isə Azərbaycanın coğrafiyası üçün mühüm əhəmiyyət kəsb edir. Kəlbəcərin faydalı qazıntıları, təbii sərvətləri, elə təbii gözəllikləri, mineral suları... bütün bunlar Azərbaycan üçün nə deməkdir - biz bu sualın cavabını yaxşı bilirik. Amma İ.Məmmədlinin elmi tədqiqat mövzusunu yada salanda onun poetik yaradıcılığının nə üçün kədərə büründüyünün sirrini anlaya bilirik. İ.Məmmədlinin həyat və yaradıcılıq yolu haqqında kitabın üz qabığında dolğun məlumat verilib. Həmin məlumat əsasında öyrənirik ki, İlhamın elmi yaradıcılıq sahəsindəki tədqiqatı Kəlbəcər ədəbi mühiti ilə bağlıdır. Deməк, onun üçün Kəlbəcərin mənəvi sərvətləri, mənəvi zənginliyi təmin edən ənənələri daha qiymətlidir və bu, heç nə ilə əvəz olunan deyil. Elə ona görə də o, ömrünün bütün gənclik illərini Kəlbəcər ədəbi mühitini öyrənməyə sərf edib.

Əli Rza Xələfli dostu İ.Məmmədli haqqında yazır: *«Onu düz bir qərinədir ki, tanıyıram. Gənclik dostlarımın yaxşı yadında olar. Jurnalistikanın daha çox zibilləndiyi, Milli Mətbuatın, demək olar ki, simasını itirdiyi dövrdə İ.Məmmədli haqqında deyirdim ki, o, barmaqla sayılan mətbuat adamlarındandır ki, qələmi çirkab mürəkkəbinə batırmayıb. Saxtalığa xidmət edən qələmin tökdüyü qanı heç su ilə də yumaq olmur. Çünki tarixin salnaməsinə bir ləkə kimi yapışıb qalır. Amma İ.Məmmədli sözün həqiqi mənasında, vicdanına güvənclі olub. Ağa ağ, qaraya qara deməyə gücü çatıb. Elə ona görə də mətbuat aləmində sözünə və özünə hörmət edən nadir obrazlardan biri kimi bu gün də nüfuzunu qoruyub saxlayır. Onun Kəlbəcər ədəbi mühitinin mənəvi sərhədlərini öyrənmək sahəsində xidmətləri əvəzsizdir.*

*Onun hələ XVIII əsrdən üzü bəri*




*Kəlbəcərdə yazıb yaradan bir çox müəllifləri araya gətirməsi ənənə və varisliyin təmini baxımından elmi fədakarlığının nəticəsi kimi qəbul olunmalıdır. İ.Məmmədli təbiət etibarı ilə şairdir, baxmayaraq ki, elmi-tədqiqatla daha çox məşğul olur. Amma onun şeirlərində Aşıq Şəmşirin ruhu yaz ağzı tumurcuq kimi çırpınır və biz Şəmşir ənənəsinin davamını onun şeirlərində görürük, duyuruq. B.Vətənoğlunun, Şücaətin, M.Aslanın və bir çox istedadlı sənətkarların xalqımızın mənəvi mühitinin zənginləşməsindəki rolunu İ.Məmmədli tədqiqatları ilə əsaslandırır. Şübhəsiz, bu tədqiqatlar onun poetik yaradıcılığına da təsirsiz ötüşmür. İ.Məmmədlinin məşhur «Gedirəm» şeirini aşıqlar xüsusi duyğu ilə oxuyur. Əli Kəlbəcərlinin (Zeynalabdinoğlu) ifasında yandırıcı bir hiss dinləyicini özünə əsir edir.*

*Bir az daşlı, bir az tozlu*
*Mən öz yolumu gedirəm,*
*Bu yolun qərib yolçusu,*
*Boşmu, dolumu - gedirəm.*

*...Dərd yaşadım bu illəri,*
*Gah aqiləm, gah sərsəri.*
*Bu yolum Tanrı əsəri*
*Yolun sonumu - gedirəm.*

*İlham sazı ruhu ilə duyur, şeirlərini də sanki saz üstə oxu üçün yazır. Mən əvvəllər də bu barədə mülahizələrimi yazmışam. Əgər klassik poeziya ənənəsini ədəbi düşüncəmizdən çıxarsaq, onda gərək muğamdan imtina edək. Əgər qoşma, gəraylı, aşıq yaradıcılığı formasını daşıyan ənədən imtina etsək, saz bizdən ayrılmalı olacaq. İ.Məmmədli kimi sənətkarların yaradıcılıqları ona görə dəyərlidir ki, onlar xalqın ruhunun bütövlüyünü qoruyur. Bunu onun «Ömrü sözə verdim» adlı ilk şeirlər kitabı da təsdiq edir».*

Bu geniş və əhatəli mülahizələrdən sonra İ.Məmmədlini bir şair olaraq oxucuya tanıtmaq üçün əlavə şərhlərə lüzum qalmır. Hər halda, İ.Məmmədlinin ustadnamə ruhu ilə yazılmış bir neçə şeirinin adını çəkmək istərdim: «Bu həpənd», «Deyirlər», «Çəkir», «Çəkdi», «Cırtdan adamlar»... sözün həqiqi mənasında bu şeirlərdə bir təkcə zəmanədən şikayəti yox, həm də müasirlərimizin arasındakı insanlığa yad və yabançı olan xislət sahiblərinin obrazlarını da görə bilirik. İlhamın dağlara güvəncli şeirləri onun sonsuz təbiət sevdalısı Kəlbəcər vurğunu olduğuna da şübhə yeri qoymur.

Dözümüm var hər ağrıya, acıya,
Hər qəm-kədər bükə bilməz dizimi.
Körpəlikdən vurğunuyam dağların,
Zaman silməz zirvələrdən izimi.

...İlham, ömür bir gedərgi karvandı.
Bacarırsan karvanını dayandı.
Murov, Keyti hər an mənə həyandı
Bu dağlara çevirmişəm üzümü.

Zənnimcə, doğma yurda, Vətənin qüruru olan dağlara bu cür üz çevirməyin özü Vətənə müqəddəs duyğularla yanaşmağın təsdiqidir.

Kitabda verilmiş məlumatdan aydın olur ki, o, 1963-cü ildə Kəlbəcər rayonunun Bəzirxana kəndində anadan olub. Ötən əsrin 80-ci ilində Zar kənd orta məktəbini bitirib. 1985-1990-cı illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb, təyinatlada «İşıq» nəşriyyatında işləyib.

Müxtəlif mətbuat orqanlarında fəaliyyət göstərib. 2009-cu ildə «XX əsr Kəlbəcər ədəbi mühiti» mövzusunda dissertasiya müdafiə edib. O, filologiya elmləri üzrə fəlsəfə doktorudur. Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, Bakı Qızlar Universitetinin dosentidir. Mətbuatla əlaqələrini bu gün də davam etdirir. «Bütöv Azərbaycan» qəzetinin redaktorudur.

Onun «Dördlük formasının genezisi və müasir Azərbaycan şeirində poetik təkamülü» mövzusunda doktorluq dissertasiyası, demək olar ki, tamamlanmaq üzrədir.

"Ömrü sözə verdim" İlham Məmmədlinin ilk şeirlər kitabıdır. Onun şeirləri ənənəvi poeziyamızın ruhunu yaşadan dəyərli bədii örnəklərdir. Və bu kitabın məziyyətləri haqqında oxucuya daha geniş məlumat vermək bizim mənəvi borcumuzdur.

***(Davamı var)***

***08.05.2025***